9 MAY FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏ GÜNÜDÜR

# “Şöhrət” ordenli atıcı və kəşfiyyatçı



**Məqalə 44 günlük Vətən müharibəsində parlaq qələbə əldə etmiş qəhrəmanlarımızın timsalında gənc soydaşlarımızda vətənə məhəbbət və ehtiram hisslərini aşılamaq kimi ali missiyaya, II dünya müharibəsində yaxından iştirak etmiş babalarımızın şərəfli ömür və döyüş yolunun araşdırılmasına həsr olunub. Qızıl fondumuz, tükənməkdə olan veteranlar nəsli illər ötdükcə yaxın tarixə çevrilir. Bir çoxları faşizm üzərində qələbədən sonra vətənə qayıtmış, əksəriyyəti itkin düşmüş, unudulmuş, bəzilərinin məzarları hələ də tapılmamışdır. Onların arasında yaralanaraq geri dönmüş, səngərlərdə böyük hünər və şücaət göstərmiş azərbaycanlı Rza Qaraxan oğlu İsayev (1916-1997) də var.1 yanvar 2022-ci ildə mərhum veteranın 106 yaşı tamam oldu.**



Tədqiqat apardığım ərəfədə görkəmli dövlət xadimləri, tarixi şəxsiyyətlər və tanınmış sərkərdələrin vətən, qəhrəmanlıq, şücaət haqqında söylədikləri müdrik kəlamlarla tanış olmaq fürsətim oldu. Kitabları vərəqləyərkən, müəllifi generalissimus rütbəsinə qədər yüksəlmiş Aleksandr Vasilyeviç Suvorovun sözləri diqqətimi çəkdi: “Döyüşdə növbə və dəstək yoxdur. Nə vaxt ki, düşmənin öhdəsindən gələcəksən, xidmət də o zaman qurtaracaq”. Bu sözlər kənardan sadə hərbi düstur kimi görünsə də böyük məna ifadə edir və sanki, bir ömür boyu hərbi disiplinlə yaşamış, haqq və ədalət prinsiplərini həyatının mənasına çevirmiş, sovet ordusunun azərbaycanlı peşəkar hərbi qulluqçusu, atıcı və kəşfiyyatçı Rza İsayevi xarakterizə edir. II Dünya müharibəsinə yollanarkən növbə və dəstəyin olmadığını,mübarizənin yazılmayan qanunlarının olduğunu dərk edən, ən əsası düşmənlə qətiyyətli savaşdan sonra Azərbaycana qayıdacağı günü səbrsizliklə gözləyən Rza İsayevin şərəfli ömür yolu ilə döyüş yolu qoşa qanad olub, həyatın enişli-yoxuşlu, bəzən mülayim, bəzən Şah dağının şaxtası kimi kəsən həyat yolunda onu müşahidə etmişlər.

Qubanın səfalı Zizik kəndində anadan olan Rza İsayev müharibə illərində əsasən mürəkkəb döyüşlərin aparıldığı 2-ci və 3-cü Pribaltika cəbhələrində yaxından iştirak etmişdir. Arxiv sənədlərində “qvardiya qızıl əsgəri” adı ilə yad olunan Vətən oğlunun şücaət və qəhrəmanlıqlarla zəngin cəbhə həyatı, faşizmlə amansız mübarizədə göstərdiyi igidlik yuxarı komandanlığın diqqətindən yayınmamış, müharibə illərində və sonrakı dövrdə orden və medallarla təltif olunmuş, həmçinin Azərbaycan hökuməti tərəfindən II Dünya müharibəsi veteranı kimi sosial müdafiəsinə diqqət yetirilmişdir. Rza İsayevin layiq görüldüyü yüksək təltiflər onun döyüş yolu, atıcı və hərbi kəşfiyyatçı fəaliyyəti haqqında təsəvvür yaradan dəyərli faktlardır. Qəhrəman azərbaycanlının layiq görüldüyü təltiflər sırasında müharibədə iştirakına, döyüş əzminə və məhv etdiyi hitlerçilərə görə təltif olunduğu III dərəcəli “Şöhrət” ordeni diqqət çəkir. Bununla bağlı Rusiya Müdafiə Nazirliyinin Mərkəzi Arxivində Rza İsayevin təltif sənədlərinə, 2-ci Pribaltika cəbhəsinin 65-ci qvardiya atıcı diviziyasının 8 fevral 1944-cü il tarixli (№ 03/N) əmrinə müvafiq olaraq orden ilə təltif edilməsi haqqında rəsmi məlumatlara rast gəlinir.”Təltif vərəqəsi”nin “Şəxsi döyüş rəşadəti və ya xidmətlərin qısa, konkret şərhi” bölməsində deyilir: “14 yanvar 1944-cü ildə batalyonun müdafiəsi məqsədilə, rayonun Kalinin vilayətinin Ustye kəndində düşmənlə döyüşə çıxıb. Qvardiya əsgəri İsayev, hücum edənlərin birinci həlqəsində olarkən, 8 almanı məhv etmiş, batalyonun müdafiəsi ilə məşğul olarkən, pulemyotu ilə atəş açaraq ikinci tağımın meşəyə doğru irəliləməsini təmin etmişdir. Bütün hallarda şəxsi dözüm, cəsarət və şücaət göstərmişdir. Yaralı olarkən, döyüş meydanını tərk etməmiş, yarasını sarıyaraq vəzifəsini yerinə yetirməyə davam etmişdir. III dərəcəli “Şöhrət” ordeni ilə təltif edilməyə layiqdir” (ЦАМО, фонд № 33, опись № 686044, дело № 4703, л. 147). Rza İsayevin özündən sonra cəbhə xatirələrini canlandıran övladları, onun faşizmə qarşı hərbi kəşfiyyat fəaliyyətindən bəhs edir və düşməni necə əsir aldığını anladırlar. Deyilənləri təsdiq edən sənədlərdən biri, Rza İsayevin sovet dövlətinin təhlükəsizliyinin müdafiə olunmasında “İgidliyə görə” (№ 3512352) medalına layiq görüldüyünün şahidi oluruq. Yüksək təltif 22 iyul 1953-cü ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi A.F.Qorkinin imzası ilə təsdiq olunmuşdur. İgid Azərbaycan oğlunun yüksək medalla təltif olunması həmçinin Rusiyanın məlum arxivinin sənədində öz əksini tapır. Bununla əlaqədar 3-cü Pribaltika cəbhəsinin 82-ci atıcı alayı üzrə, qırmızı bayraqlı 33-cü ələhiddə Xolm diviziyasının 9 oktyabr 1944-cü il tarixli (№48) təltif əmrindən oxuyuruq: “Piyada kəşfiyyat tağımının kəşfiyyatçısı - qızıl əsgər İsayev Rza Qaraxan oğlunu təltif edirəm ona görəki o, 1944-cü il sentyabrın 16-da Yaqo kəndi uğrunda gedən döyüşdə öz avtomatından atəş açaraq5 hitlerçini məhv etmiş, 3-nü isə əsir almışdır” (ÜAMO, fond № 33, opisğ № 687572, delo № 702, l. 190).Göründüyü kimi şəxsi igidlik, dözümlülük və şücaət, alman diversant və casuslarına qarşı mübarizədə Rza İsayevin düşmən haqqında kəşfiyyat məlumatları topladığını və onlardan əsir aldığını da yüksək təltif əyani şəkildə sübut edir. Medalın kitabçasında foto üçün nəzərdə tutulmuş yerin boş olması və üzərində “Fotosuz etibarlıdır” sözlərinin yazılması bir daha göstərmiş olur ki, Rza İsayev sovet məmləkətinin müdafiəsini təmin etmək məqsədilə onun sərhədlərinin təhlükəsizliyini qorumaq kimi mühüm xidmətə cəlb edilmiş peşəkar hərbi qulluqçulardan biri idi. Təltif kitabçasında medalın kimlərə verilməsi ilə bağlı bənddə kəşfiyyat xidməti kimi mühüm məsələyə də toxunulmuşdur.

Ağır müharibə illəri başa çatdıqdan sonra, qismətinə qazi olmaq düşən Rza İsayev düşmənlə döyüşün bitməyinə bir il qalmış sağ ayağından yaralanmış, 8 aylıq uzun müalicədən sonra sağ-salamat evinə və əzizlərinə qovuşmuşdur. Onun yaralandığını təsdiq edən arayışda deyilir: “Sovet vətəni uğrunda döyüşlərdə qızıl əsgər (33 s/d 89 s/p), yoldaş İsayev Rza Qaraxan oğlu 11 noyabr 1944-cü ildə sağ bud sümüyünün zədələnməsi ilə güllə yarası alıb”. RSSR Xalq Səhiyyə Komissarlığının Yaroslavl “Evako-Hospital”ının mayor rütbəsində olan rəisi, Rzanın döyüşlərdə yaralandığına dair 22 iyul 1945-ci ildə (№ 22/08) 1780 № li arayış təqdim etmişdir. Sənədin surəti Quba Rayon hərbi komissarı mayor Hüseynovun imzası ilə möhürlənmiş halda hələ sağlığında Rza İsayevə təqdim olunmuşdur. Həmçinin Rza İsayevin xatirələrindən belə məlum olur ki, hospitalda onun ayağını amputasiya etmək istəyirlər, lakin o emosional tonda: “əgər ayağımı kəssəniz özümü pəncərədən aşağı ataram” söyləyir və gecə, özünü tənziflə çarpayıya dolayaraq möhkəm bağlayır. Onun qəti qərarından ehtiyat edən həkimlər bundan imtina etməli olurlar. Sonralar Rza İsayevin ayağı sağalsa da sümük bitişməsi nəticəsində dizi qatlanmır və ömrünün sonuna qədər əsanın köməyi ilə gəzməli olur.

“1941-1945-ci illər Böyük Vətən Müharibəsində Almaniya üzərində qələbə münasibətilə” medalı (Q № 0370488) ilə təltif olunması Rza İsayevin yüksək hərbi qulluqçu fəaliyyətindən xəbər verir. Medal SSRİ Ali Soveti Rəyasət Heyəti adından, Quba Rayon Hərbi Komissarlığı tərəfindən 16 fevral 1946-cı ildə təqdim olunmuşdur. Rza İsayevin düşmənlə mübarizədə fəal və qətiyyətli olduğunu təsdiq edən növbəti təltif aldığı yüksək ordenlə bağlıdır. Bələki o, alman-faşist işğalçıları ilə mübarizədə göstərdiyi igidliyə, mərdlik və cəsarətə görə, “1941-1945-ci illər Böyük Vətən Müharibəsində sovet xalqının qələbəsinin 40 illiyi”nin bayram edilməsi münasibətilə, SSR Ali Soveti RH-nin 1985-ci il 11 mart tarixli fərmanına müvafiq olaraq, ən yüksək I dərəcəli “Vətən müharibəsi ordeni” ilə təltif edilmişdir. Rza İsayevin şücaəti, atıcı və kəşfiyyatçı xidmətləri digər orden və medallarında da öz əksini tapmışdır. Yüksək təltifləri əks etdirən SSRİ Ali Soveti RH-nin 1943-cü il 19 iyun tarixli fərmanı ilə orden və medalları əks etdirən rəngli lent təsis edilmişdir. Belə rəngli lentə (planka) Rza İsayevin də medalları arasında rast gəlinir. Rənglərin əksəriyyəti peşəkar hərbi qulluqçunun yüksək nizam intizamı, igidliyi, atıcı və kəşfiyyatçı xidməti ilə bağlıdır.

Rza İsayev “1941-1945-ci illər Böyük Vətən Müharibəsində qələbənin 20 illiyi” yubiley medalı ilə SSRİ Ali Sovetinin RH-i adından, Quba Rayon hərbi komissrı tərəfindən 1966-cı ilin 9 aprelində təltif olunmuşdur. Ardından 8 may 1970-ci ildə SSRİ-nin müdafiə naziri, Sovet İttifaqı marşalı A.A.Qreçkonun imzası ilə müharibədə mərdlik və şücaətə görə “Böyük Vətən Müharibəsində qələbənin 25 illiyi” döş nişanı ilə təltif edilmişdir. Rza İsayevin düşmənə qarşı göstərdiyi hünər və rəşadət növbəti illərdə də yüksək qiymətləndirilmişdir. Bələki o, “1941-1945-ci illər Böyük Vətən Müharibəsində qələbənin 30 illiyi” yubiley medalı ilə təltif olunmuşdur. Medal SSRİ Ali Sovetinin RH-i adından, 1975-ci ilin 16 oktyabrında Quba Rayon hərbi komissarlığında təqdim edilmişdir. Daha sonra, Rza İsayev “1941-1945-ci illər Böyük Vətən Müharibəsində qələbənin 40 illiyi” yubiley medalı ilə təltif olunmuşdur. Medal SSRİ Ali Sovetinin RH-i adından, 1985-ci ilin 12 iyulunda Quba Rayon Hərbi Komissarlığı tərəfindən təqdim edilmişdir. Vətən oğlunun “SSRİ silahlı qüvvələrinin 50 illiyi” yubiley medalı ilə təltif olunması da diqqət çəkir. Medal SSRİ Ali Sovetinin RH-i adından 1970-ci ilin 12 mayında Quba Rayon hərbi komissarı tərəfindən təqdim olunmuşdur. Rza İsayevin “SSRİ silahlı qüvvələrinin 60 illiyi” yubiley medalı ilə təltif olunması qəhrəman azərbaycanlının faşizmə qarşı mübarizədə yaxından iştirakına ehtiramı əks etdirir. Medal SSRİ Ali Soveti RH-i adından 1978-ci ilin 14 avqustunda Quba rayonunun hərbi komissarı tərəfindən təqdim olunmuşdur. Uzun illər sürən vicdanlı əməyə görə “Əmək Veteranı” medalı ilə 25 noyabr 1979-cu ildə təltif edilməsi də Rza İsayevin əmək veteranı kimi zəhmətsevərliyinə verilən yüksək dəyərin nəticəsi idi. Həmçinin, Rza İsayev “SSRİ silahlı qüvvələrinin 70 illiyi” yubiley medalı ilə təltif olunmuşdur. Medal SSRİ Ali Sovetinin RH-i adından 1988-ci il iyunun 10-da Quba rayonunun hərbi komissarı, polkovnik Həmzəyev tərəfindən təqdim edilmişdir. 1980-ci illərdə Rza İsayevə SSRİ və İttifaq respublikalarının qanunvericiliyi ilə müharibə iştirakçıları üçün müəyyən olunmuş güzəşt və üstünlüklərdən istifadə etmək hüququ da verilmişdir. Sosial vəsiqə bütün SSRİ ərazisində qüvvədə olmuşdur.

Qəhrəmanlar ölmür, onlar əbədi olaraq əzizlərinin qəlblərinə köçür və rəhmətlə yad olunurlar. Rza İsayev də vətənini sevən, haqq və ədaləti həyatının mənasına çevirən, 1941-1945-ci illər müharibəsində xüsusi igidlik göstərərək “Şöhrət” ordeninə layiq görülmüş azsaylı azərbaycanlılardan biri idi. Onun kimi müharibə illərində mərdlik göstərmiş vətən oğulları unudulmur, onları cəmiyyətimizə tanıtmaq, yenidən qazandırmaq baxımından ziyalıların üzərinə böyük məsuliyyət düşür, şəxsi şücaəti ilə seçilmiş belə qəhrəmanlar dünya durduqca sevənlərinin, xalqının qəlbində bir ömür xoş xatirələrlə anılmağa davam edəcəklər.

**Aqil ƏHMƏDOV**
**AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent**